***Sosial Tədqiqatlar Mərkəzi (STM) "İnam İndeksi" nəşrinin üçüncü buraxılışı Azərbaycan Prezidentinin ilin ikinci rübündə – aprel, iyun ayları ərzindəki fəaliyyətinə həsr edilib. STM, eyni zamanda, "Pandemiya ilə mübarizədə dövlətin antiböhran siyasəti ictimai rəydə" mövzusunda ictimai rəy sorğusu əsasında böyük tədqiqat işi hazırlayıb. Sözügedən nəşr və tədqiqat işi ölkə ictimaiyyətində böyük maraq doğurub. Bu barədə söz düşəndə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev dedi:***

# Ölkə vətəndaşları dövlətimizin müdrik lideri ilə fəxr edirlər



– Yeni koronavirus pandemiyası ötən ilin sonlarından bütün dünyaya, bəşəriyyətə saysız-hesabsız problemlər yaşadıb və təəssüf ki, yaşatmaqda davam edir. Düşünürəm ki, pandemiya həm də bir tarixi sınaqdır. Belə ki, pandemiya dönəmində çox gərgin keçən həftələr, aylar göstərdi ki, dünyada yalnız müdrik dövlət başçıları bu ağır təhlükəyə qarşı daha düzgün reaksiya verməyi bacardılar. Belə tarixi şəxsiyyətlərin ilk cərgələrində yer alan liderlərdən biri məhz Azərbaycan Prezidenti cənab İlham Əliyevdir!

Reallıq budur ki, xalqımızın sevimli rəhbəri öz millətinin taleyüklü problemini öz üzərinə götürərək, əhalinin sağlamlığının və təhlükəsizliyinin qorunması üçün zamanın çağırışlarına adekvat olan addımlar atmışdır. Dövlətimizin başçısı ilk gündən bəyan etdi ki, onun üçün Azərbaycan xalqının sağlamlığının qorunmasından önəmli heç nə yoxdur. Bu istiqamətdə, ölkəmizdə həqiqətən, böyük təşkilati işlər görüldü, bütün imkanlar səfərbərliyə alındı, yeni xəstəxanalar inşa edildi. Bu gün hər birimizə bəllidir ki, pandemiya ilə mübarizədə başqa ölkələrlə müqayisədə Azərbaycanda vəziyyət daha yaxşıdır.

Təsadüfi deyildir ki, Ümumdünya Səhiyyə Təşkilatı Prezident İlham Əliyevin, bütövlükdə, dövlətimizin bu istiqamətdəki gərgin səylərini dünyanın başqa ölkələri üçün nümunə hesab etmişdir. Bəli, reallıq budur ki, Azərbaycan Prezidenti möhkəm iradə və yüksək idarəçilik səriştəsi, qətiyyət və bacarıq nümayiş etdirərək çağdaş dövrün ağır çağırışlarını həll etməyi bacarmışdır.

Cənab İlham Əliyevin nüfuzu xalq içərisində daha da artmışdır. Eyni sözləri Mehriban xanım Əliyeva haqqında da söyləmək mümkündür. Hörmətli Mehriban xanım dövlət və milli həyatın bütün sahələrində Prezidentlə çiyin-çiyinə addımladı və hər zaman xalqın yanında oldu.

Ölkə Prezidentinin fəaliyyətinin prioritet istiqamətlərindən birini kadr islahatları təşkil edir. Prezident tərəfindən həyata keçirilən kadr islahatları ona olan inam və etimadın artmasında təsirli rol oynayıb. Belə ki, Prezidentə olan inam və etibarının artdığını bildirən 24,6 faiz respondentin 68,6 faizi kadr islahatlarını yüksək qiymətləndirib. İnam və etimadının azaldığını bildirən 2,6 faiz respondentin isə 8 faizi kadr islahatlarını müsbət qiymətləndirib. Dövlət başçısının həyata keçirdiyi kadr islahatlarını çox səmərəli hesab edənlərin 81,2 faizi onun korrupsiya ilə mübarizə sahəsindəki təşəbbüslərini də dəstəklədiyini bildirir. Kadr islahatlarını mənfi qiymətləndirənlərin də əhəmiyyətli hissəsi – 74,3 faizi korrupsiya hallarına yol verən vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin doğru olduğu qənaətindədir.

Prezident İlham Əliyevin daxili və xarici siyasəti Azərbaycan xalqının və dövlətinin parlaq gələcəyinə xidmət edir. Bu, bir həqiqətdir, ölkə vətəndaşları bunu görür, müşahidə edir və haqlı olaraq dövlətimizlə, onun müdrik lideri ilə sonsuz qürur duyurlar.

*Qələmə aldı:*
***M.HACIXANLI, "Xalq qəzeti"***